**S.K.MİKAYILOVA**
*baş müəllim*
*e-mail: sevil.mikayilova.k@bsu-uni.edu.az*
**:https://orcid.org/0000-0001-8922-7997**

**R.H.QULİYEVA**
*baş müəllim*
*e-mail: quliyeva.ravana@mail.ru*
**:https://orcid.org/0009-0003-2598-8238**

**Bakı Slavyan Universiteti**
(Bakı şəh., S.Rüstəm küç., 33)

**10.62021/0026-0028.2024.4.309**

# XİTABIN TƏDRİSİNƏ DAİR

***Xülasə.*** *Xitab haqqında geniş məlumatı şagirdlər yuxarı siniflərdə alırlar. Xitabların öyrədilməsi işinə şagirdlərin cümlə üzvlərinin əsas əlamətləri barədə əldə etdikləri biliklərə istinadən başlamaq məqsədəuyğundur. Əgər cümlə üzvləri obyektiv gerçəklikləri, cisim və hadisələr arasında olan əlaqələri ifadə edirsə, xitab ancaq müraciət olunanı bildirir. Xitab cümlənin quruluşuna təsir edə bilmir. Xitabın cümlədə konkret yeri yoxdur. Belə ki, xitab cümlənin əvvəlində, ortasında və sonunda işlənə bilir. Xitabların intonasiyası çox zaman cümlənin ümumi intonasiyası ilə uzlaşır. Bədii əsərlərin dilində xitablara çox təsadüf edilir.*
*Xitablar quruluşuna görə sadə və mürəkkəb ola bilir. Sadə xitab bir sözdən ibarət olmaqla isimlə ifadə olunur. Mürəkkəb xitab isə söz birləşmələri şəklində özünü göstərir.*
*Təcrübəyə əsasən deyə bilərik ki, şagirdlər bəzən mübtəda ilə xitabı qarışdırırlar. Müəllim bunu nəzərə almalı, misallar göstərməklə mübtəda ilə xitabı müqayisə etməlidir. Mövzunu nəzəri cəhətdən mənimsəyən şagirdləri sərbəst şəkildə çalışmalar üzərində işlətmək olar.*

***Açar sözlər:*** *Cümlə üzvləri, qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər, xitab, sadə və mürəkkəb xitablar, intonasiya, fasilə, xitablarda durğu işarələrinin işlədilməsi, xitabın cümlədə yeri, xitabın mübtəda ilə müqayisəsi*

Məlumdur ki, qrammatikanın əsas bölmələrindən olan sintaksisin mühüm tədqiqat obyektlərindən biri də cümlədir. İnsanlar düşündüklərini, fikir və arzularını məhz cümlə şəklində digərlərinə çatdırırlar. Hər bir cümləni təşkil edən sözlər cümlə üzvləridir. Ayrılıqda götürülən hər söz hələ cümlə üzvü deyil. Onlar bir-birilə müəyyən əlaqəyə girib fikir ifadə etdikləri zaman cümlə üzvü olur. Başqa sözlə, cümlə üzvünü cümləsiz təsəvvür etmək mümkün deyil. Hər bir cümlə üzvünün leksik mənası, cümlədə vəzifəsi, sualı vardır.

Cümlə və onun üzvləri haqqında ilkin məlumatı şagirdlər hələ ibtidai sinifdə alırlar. Yuxarı siniflərdə isə bu məlumat daha ətraflı və təkmilləşdirilmiş olur.

Cümlə üzvlərinin gözəl mənimsənilməsi növbəti mövzunun, yəni cümlədə iştirak edən, lakin cümlə üzvü hesab olunmayan sintaktik kateqoriyaların öyrənilməsi işini də asanlaşdırır.

Qeyd olunan sintaktik kateqoriyalar "Qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər" başlığı altında öyrədilir. "Cümlə üzvlərindən fərqli olaraq bu sözlər cümlənin əmələ gəlməsində bilavasitə iştirak etmir və heç bir suala cavab vermir" [1, s. 216].

Düzdür, bu sözlərlə cümlə üzvləri arasında məna əlaqəsi var, lakin qrammatik əlaqə yoxdur. Qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlərə xitab və ara sözlər daxildir.

Ara sözlərdən fərqli olaraq xitabın aşağı siniflərdə tədrisi nəzərdə tutulur. Bu da onunla əlaqədardır ki, şagirdlər hələ kiçik yaşlarından tərkibində xitab olan cümlələri nitqlərində çox işlədirlər. Məhz bu baxımdan ara sözlərə nisbətən xitabın mənimsədilməsi daha asan olur.

Xitab haqqında mükəmməl məlumatı şagirdlər yuxarı siniflərdə əldə edirlər. Xitabların öyrədilməsi işinə şagirdlərin cümlə üzvlərinin əsas əlamətləri barədə əldə etdikləri biliklərə istinadən başlamaq məqsədəuyğundur.

Müəllim cümlə üzvlərini, onların cümlədəki rolunu, xüsusiyyətlərini, hansı suala cavab verdiklərini şagirdlərə təkrar etdirir. Daha sonra xitabın tədrisinə başlanılır.

Müəllimin xitab haqqında verdiyi məlumatdan sonra şagirdlər dərk edirlər ki, cümlə üzvlərinə xas olan əlamətlər xitablarda yoxdur. Əgər cümlə üzvləri obyektiv gerçəklikdəki cisim və hadisələr arasında olan əlaqələri ifadə edirsə, xitab ancaq müraciət olunan şəxsi bildirir.

Xitabı cümləyə bağlayan əsas intonasiyadır.

Müəllim izah edir ki, xitab cümlənin quruluşuna təsir edə bilmir, lakin cümlədəki fikrin təsirini dəyişdirir. Məhz bu xüsusiyyətinə görə xitab bədii keyfiyyətə malikdir. Xitab işlətdiyimiz hər hansı bir cümləni xitab olmadan oxusaq, cümlənin quruluşunda heç bir dəyişiklik baş verməz. Ancaq cümlədə bədii təsir itirilər. Sonra nümunə üçün diqqəti aşağıdakı cümlələrə cəlb etmək olar:

1. Yox, əzizim, mən səni özümlə yol çəkməyə apara bilmərəm.
2. Yox, mən səni özümlə yol çəkməyə apara bilmərəm.

Şagirdlərə izah olunur ki, göstərilən hər iki cümlədə fikir eynidir. Lakin bu cümlələr bədii təsvir cəhətdən fərqlidir. Birinci cümləni oxuyarkən intonasiya özünü göstərir. Bu isə cümlədə xitabın işlənməsi ilə əlaqədardır. Deməli, birinci cümlədə təsir gücü vardır ki, bu da onu ikinci cümlədən fərqləndirir.

İntonasiya ilə bağlı şagirdlərin nəzərinə bunlar çatdırılmalıdır:

1. Xitab cümlədə müraciət olunan şəxsi bildirərək qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmur və onlardan intonasiya vasitəsilə ayrılır. Bu intonasiyaya görə xitabdan əvvəl və sonra fasilə yaranır.

a) Nəsib, müəllim bizi çağırır.
b) Nəsib müəllim bizi çağırır.

Şagirdlər verilən hər iki cümləni oxuyur, birinci cümlədə müraciət olunan şəxsi (Nəsib) tələffüz edərkən intonasiya və fasilədən istifadə edirlər. İkinci cümlədə isə xitab olmadığına görə cümlə adi tonla oxunur, heç bir intonasiya, fasilə özünü göstərmir.

2. Xitab cümlənin əvvəlində işlədildikdə xüsusi intonasiya ilə tələffüz edilir və fasilə də daha uzun olur. Bu zaman xitabın sonunda səs tonu da yüksəlir.

3. Xitab cümlənin ortasında işlədilərsə sürətli tələffüz olur, intonasiya hissedilməz dərəcədə özünü göstərir.

4. Cümlənin sonunda işlənən xitab çox da aydın olmayan fasilə ilə digər cümlə üzvlərindən ayrılır.

5. Harada işləndiyindən asılı olmayaraq xitab hər zaman məntiqi vurğu qəbul edir. Sadəcə olaraq bu vurğu cümlənin əvvəlində və sonundakına nisbətən ortada bir qədər zəifləyir.

6. Xitabların intonasiyası çox zaman cümlənin ümumi intonasiyası ilə uzlaşır.

Yuxarıdakı bəndlərin hər birində söylənilənlər müəllimin göstərişi ilə şagirdlər tərəfindən misallara tətbiq olunur, düzgün tələffüz qaydalarına riayət edilir.

Məlumdur ki, intonasiya, fasilə, vurğu şifahi nitqə aiddir. Yazılı nitqdə bunları durğu işarələri əvəz edir.

Xitabın tədrisində müəllim xitablarda durğu işarələrinin işlədilməsi mövzusunun üzərində də xüsusi dayanmalıdır. Bu zaman ilk növbədə xitabın qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlərə aid olması şagirdlərə xatırladılır.

Deməli, xitab yazıda da digər cümlə üzvlərindən vergül vasitəsilə ayrılır.

Cümlənin əvvəlində işlənən xitabdan sonra vergül işarəsi qoyulur. Cümlənin ortasında işlənən xitabın hər iki tərəfindən, sonda işlənən xitabdan isə əvvəl vergül qoyulur. İntonasiyadan asılı olaraq cümlənin sonundakı xitabdan sonra nida işarəsindən də istifadə oluna bilər. Müəllim şagirdlərə izah edir ki, xitablar istər danışıq dilində, istərsə də nəzm və nəsr əsərlə-

rində çox işlənir. Bununla əlaqədar şagirdlərin ədəbiyyat fənnindən keçdikləri bədii əsərlərdən nümunələr gətirmələri yerinə düşər:

1. Dostlar, anın sürətini qabaqlayıb biz,
Zaman üçün təzə ölçü yaradaq gərək. (B.Vahabzadə)
2. Əl çək, bala, dövlətlilərə
Xidmətin olsun. (M.Ə.Sabir)
3. Ayrılarmı könül candan
Azərbaycan! Azərbaycan! (S.Vurğun)
4. Məzlumluq edib başlama fəryada, əkinçi. (M.Ə.Sabir)

Xitabın müraciət məqsədilə işlənməsini bilən şagirlərin nəzərinə çatdırılmalıdır ki, bu müraciət insana, insan olmayan canlılara və cansız varlıqlara yönəldilə bilər. Gündəlik həyatımızda biz canlı şəxslərə müraciət edirik. Bədii əsərlərdə, xüsusən də nəzm əsərlərində isə digər canlılara, cansız varlıqlara müraciətə çox rast gəlirik. Şagirdlərin iştirakı ilə bu deyilənlərə aid nümunələr söyləmək olar:

1. Cansız varlığa müraciət:
a) Quş kimi üstünüzdə
Qanad çalım, dərələr! (N.Xəzri)
b) Sevin, ey çöl, ey orman
artıq dəyişdi zaman. (A.Şaiq)
2. Şəxsə müraciət:
Əziz ana, can ana,
Gözəl, mehriban ana! [2, s. 67]
3. Digər canlılara müraciət:
Sözüm vardır mənim sizə, durnalar! (Vaqif)
Nədən hər yerin əlvandır,
Köksün altı, sarı bülbül?! [2, s. 78]
A quşlarım getməyin,
Məni qəmgin etməyin (A.Səhhət).

Xitab haqqında məlumat verilərkən onun quruluşca sadə və mürəkkəb ola bilməsi də qeyd olunmalıdır. Müəllim göstərməlidir ki, sadə xitablar bir sözdən ibarət olur və əsasən isimlə ifadə olunur.

*Fəhlə*, özünü səndəmi bir insanmı sanırsan? [3, s. 13]

Mürəkkəb xitablar isə söz birləşməsi şəklində olur:

1. Ey ana təbiət, de neçin, niyə
Gülün budağında tikan bitirdin? [4, s. 45]
2. Gəl, gəl, a yaz günləri,
İlin əziz günləri. [3, s. 14]
3. A məktəb yolları, məktəb yolları,
Sizi bir an belə unutmadım mən. [4, s. 45]

Bəzən şagirdlər mübtəda ilə xitabı qarışdıra bilərlər. Bunu nəzərə alan müəllim aşağıdakıları şagirdlərə izah edə bilər:

1. Mübtəda cümlənin bir üzvü olduğu halda xitab cümlə üzvü deyil.
2. Mübtəda cümlədə haqqında danışılanı bildirir, xitab isə ancaq müraciət olunanı bildirir.
3. Həm mübtəda, həm də xitabın adlıq halda olmasına baxmayaraq, xitabın adlıq halı yüksək tonu ilə fərqlənir.
4. Mübtədanın özünəməxsus sualları var, xitabın isə sualı yoxdur.
5. Mübtəda digər cümlə üzvləri ilə məna və qrammatik cəhətdən əlaqəli olur, xitab isə qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı deyil.
6. Mübtəda cümlədə, adətən, xəbərdən əvvəl işlənir, xitabın isə cümlədə konkret bir yeri yoxdur.

7. Mübtəda demək olar ki, bütün nitq hissələri ilə ifadə oluna bilir, xitab isə bütün nitq hissələri ilə ifadə oluna bilmir.

8. Xitabı mübtədadan fərqləndirən cəhətlərdən biri də onun xüsusi intonasiya ilə tələffüz edilməsidir.

Xitabı nəzərə cəhətdən mənimsəyən şagirdləri sərbəst şəkildə maraqlı çalışmalar üzərində işlətmək olar.

**İşin elmi nəticəsi.** Deyilənlərin yekunu kimi onu demək olar ki, xitab cümlədə işlənərkən digər cümlə üzvləri ilə məna cəhətdən əlaqəyə girsə də, qrammatik cəhətdən onlara heç bir bağlılığı olmur. Xitabın tələffüzündə intonasiya əsasdır. Yazıda isə xitab vergül vasitəsilə başqa üzvlərdən ayrılır.

**İşin elmi yeniliyi.** Məqalədə yalnız xitabın tədrisi üzərində dayanılmır. Eyni zamanda xitabın mübtəda ilə müqayisəsi öz əksini tapır, oxşar və fərqli cəhətlər göstərilir.

**İşin tətbiqi əhəmiyyəti.** Qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan xitabı şüurlu surətdə mənimsəyən şagirdlər onu asanlıqla digər cümlə üzvləri ilə müqayisə edə bilirlər. Xitabın tələffüzündə səhvə yol vermirlər, düzgün yazı qaydalarına riayət edir, çalışmalar üzərində sərbəst surətdə işləyirlər.

## Ədəbiyyat


1. Abdullayev, Ə. Müasir Azərbaycan dili (sintaksis) / Ə.Abdullayev, Y.Seyidov, A.Həsənov. – Bakı, – 2007.
2. Orta məktəbdə Azərbaycan dilinin tədrisi. I hissə. – Bakı: Maarif, – 1976.
3. Cəfərov, S. Müasir Azərbaycan dili (leksika). – Bakı: Maarif, – 1970.
4. Hüseynzadə, M. Müasir Azərbaycan dili. III hissə / M.Hüseynzadə, – Bakı: Maarif, – 1983.


**S.K.Mikayilova, R.H.Guliyeva**

**On The Teachıng of Address**

***Summary***

Students receive extensive information about address in senior classes. It is advisable to begin teaching address by relying on the students' knowledge of the main features of sentence members. If sentence members express objective realities, relationships between objects and events, then address means only what is addressed. Address cannot affect the structure of the sentence. Address has no specific place in the sentence. Thus, address can be used at the beginning, middle and end of a sentence. The intonation of addresses often coincides with the general intonation of the sentence. There are many cases of address in the language of literary works.

Addresses can be simple and complex in their structure. A simple address consists of one word and is expressed by a noun. A complex address is expressed in the form of phrases. Based on experience, we can say that students sometimes confuse subjects with addresses. The teacher should take this into account and compare subjects with addresses, giving examples. Students who have mastered the subject theoretically can work in class in a free form.

***Key words:*** *Parts of sentences, words that are not grammatically related to parts of sentences, address, simple and complex addresses, intonation, pause, use of punctuation marks in addresses, place of address in a sentence*

**С.К.Микаилова, Р.Г.Гулиева**

**О методике преподавания обращения**

***Резюме***

Учащиеся получают обширную информацию об обращении в старших классах. Работу по обучению обращению целесообразно начинать с опорой на полученные учащимися знания об основных признаках членов предложения. Если члены предложения выражают объективные реальности, отношения между предметами и событиями, то обращение означает лишь то, к чему

обращаются. Обращение не может повлиять на структуру предложения. Обращение не имеет определенного места в предложении. Таким образом, обращение может использоваться в начале, середине и конце предложения. Интонация обращений часто совпадает с общей интонацией предложения. В языке литературных произведений встречается множество случаев обращений.

Обращение могут быть простыми и сложными по своей структуре. Простое обращение состоит из одного слова и выражается существительным. Сложное обращение проявляется в виде словосочетаний. Исходя из опыта, можно сказать, что студенты иногда путают подлежащие с обращением. Учитель должен это учитывать и сравнивать подлежащие с обращением, приводя примеры. Студенты, освоившие предмет теоретически, могут работать на занятиях в свободной форме.

***Ключевые слова:*** *Части предложений, слова, грамматически не связанные с частями предложения, обращение, простые и сложные обращения, интонация, пауза, употребление знаков препинания в обращениях, место обращения в предложении*

*Rəyçi: dos. Ç.H.Məmmədova*

*Redaksiyaya daxil olub: 12.10.2024*